# Hayastanda sensasion iddia: Paşinyan Bakıya gedir

Son günlər erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, Hayastanın rifahı, ümumiyyətlə, dövlət olaraq varlığı Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar. Çünki artıq xaricdəki diaspor da onların imdadına çata bilmir.

Erməni politoloq Xaçik Qalstyan deyib ki, Paşinyan Prezident İlham Əliyevin dəvətini qəbul edərək, COP29-da iştirak üçün Bakıya gedərsə, Azərbaycanın Minsk qrupunun ləğv edilməsi üçün birgə bəyanatın verilməsi ilə bağlı istəyini yerinə yetirəcək. O, Bakıya getməmişdən öncə bu haqda açıqlama verəcək.

Qalstyan bildirib ki, Bakının sülh sazişini imzalamaq üçün İrəvandan iki məsələni tələb etdiyi artıq məlumdur: "Bunlardan biri Hayastan konstitusiyasının dəyişdirilməsi, digəri isə Minsk qrupunun buraxılması ilə bağlıdır. Ermənistan yaxın vaxtlarda Bakının Minsk qrupu ilə bağlı tələbini icra edəcək və bu formatın de-yure ləğvi haqda ərizə verəcək. Xarici İşlər Nazirliyinin son açıqlaması da bunu deməyə əsas verir. Paşinyan noyabrda keçiriləcək COP29 tədbirində iştirak üçün Bakıya yola düşə bilər, ona qədər isə Əliyevin tələblərini icra edəcək".

8

Hayastanla Azərbaycan arasında 30 il davam edən Qarabağ münaqişəsinə son qoyulsa da, sülh müqaviləsinin imzalanmaması regionda sabitliyə təhdid yaradır.

# *Hayastanda sensasion iddia:* Paşinyan Bakıya gedir



Bunun da yeganə səbəbi cəmi 44 günə Azərbaycan qarşısında çöküb savaşın dayandırılmasını xahiş edən İrəvanın destruktiv mövqeyi və təxribatlarıdır.

Son günlər erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, Hayastanın rifahı, ümumiyyətlə, dövlət olaraq varlığı Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar. Çünki artıq xaricdəki diaspor da onların imdadına çata bilmir.

Erməni politoloq Xaçik Qalstyan deyib ki, Paşinyan Prezident İlham Əliyevin dəvətini qəbul edərək, COP29-da iştirak üçün Bakıya gedərsə, Azərbaycanın Minsk qrupunun ləğv edilməsi üçün birgə bəyanatın verilməsi ilə bağlı istəyini yerinə yetirəcək. O, Bakıya getməmişdən öncə bu haqda açıqlama verəcək.

Qalstyan bildirib ki, Bakının sülh sazişini imzalamaq üçün İrəvandan iki məsələni tələb etdiyi artıq məlumdur: "Bunlardan biri Hayastan konstitusiyasının dəyişdirilməsi, digəri isə Minsk qrupunun buraxılması ilə bağlıdır. Ermənistan yaxın vaxtlarda Bakının Minsk qrupu ilə bağlı tələbini icra edəcək və bu formatın ləğvi haqda ərizə verəcək. Xarici İşlər Nazirliyinin son açıqlaması da bunu deməyə əsas verir. Paşinyan noyabrda keçiriləcək COP29 tədbirində iştirak üçün Bakıya yola düşə bilər, ona qədər isə Əliyevin tələblərini icra edəcək".

Erməni politoloq iddia edir ki, Paşinyan Əliyevin tələblərinə müqavimət göstərə bilmir: "Onlar Zəngəzur dəhlizindən danışırlar, həm də bu məsələni sülh sazişi mətnindən çıxarırlar. Bu, istədiklərini etmək üçün lazımdır. Hayastan tərəfi də prosesin içindədir. İndiyə qədər azərbaycanlıların Sünikə (Zəngəzurred) qayıdışı ilə bağlı heç bir rəsmi qadağa səslənməyib, bu o deməkdir ki, arxada razılaşmalar var".

Göründüyü kimi, Hayastanın siyasi isteblişmenti də başa düşür ki, İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Azərbaycan Hayastana vəziyyətdən çıxmaq naminə sülh müqaviləsinin imzalanması üçün şans verib. Proseslərin gedişi göstərir ki, Paşinyan hakimiyyətinin sülh sazişinə "hə" deməkdən başqa yolu yoxdur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 17 avqust (№ 175).- S.1, 8.